


# Qəhrəmanlıq salnaməsini yazanlar

**Azərbaycanın yeni, şanlı tarixini yazan zəfər şəhidlərindən biri də Hüseyn Xanhüseyn oğlu Başirzadədir. Lənkəranın Qumbaşı kəndində boya-başa çatan Hüseyn indi bütöv Azərbaycan xalqının qürurudur. 26 yaşında şəhidlik zirvəsinə ucalan Vətən sevdalısının dövlət tərəfindən layiq görüldüyü "Vətən uğrunda", "Cəsur döyüşçü", Cəbrayılın və Qubadlının azadlığına görə medalları doğmalarına təsəllidir.**

Hüseyn Başirzadə Vətən müharibəsinə könüllü yollanıb. Birbaşa səngərə, erməni işğalçılarına qarşı döyüşlərdə iştirak etməyə yollanıb. Rəşadət nümunəsi göstərərək döyüşdən-döyüşə bərkiyən, hər dəfə yağının üstünə qartal tək şığıyan Hüseyn Cəbrayılın, Füzulinin azadlığı uğrunda, sözün əsl mənasında, tarix yazıb. Hünəri onunla çiyin-çiyinə vuruşan yoldaşlarına da nümunə olub. Hər günü zəfərlə dolu döyüş yolu Qubadlıya qədər davam edib. Burada şəhidlik zirvəsinə ucalıb. Doğma Qumbaşı kəndində torpağa tapşırılıb.






Öz oğlunun hünərinə, qeyrətinə bələd olan, həmişə xatirəsini əziz saxlayan kənd sakinləri buradan keçəndə məzarı önündə baş əyirlər.

Zəfər şəhidi Hüseyn Başirzadənin anım günündə də uyuduğu müqəddəs yerə xeyli sayda adam toplanmışdı. Belə ki, Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov, digər rəsmi şəxslər, yerli ictimaiyyətin nümayəndələri, şəhid ailəsinin üzvləri Hüseyn Başirzadənin xatirəsinə ehtiram əlaməti olaraq məzarının üzərinə təzə güllər düzdülər.

**Zəfər ORUCOĞLU.**